## Qaytar məni dənizlərə

Ulu Tanrım! Dünya məni,
Gəlişimə kiritmədi.
Duzlu olur dəniz suyu
Saxladığın çürütmədi
Qaytar məni dənizlərə.

Göy suların arasında
Əzizləsin yosun məni.
Gözlərinin qarasında
Su pərisi yusun məni,
Qaytar məni dənizlərə.

Hər nə olum, hər kim olum,
Bezmişəm yer deyiləndən.
Balığına qoy yem olum,
Adamları əyiləndə,
Qaytar məni dənizlərə.

Çay olmağı diləyirəm,
Sal qayalar yara-yara,
Mən qovuşmaq istəyirəm,
Dəryalara, ümmanlara,
Qaytar məni dənizlərə.

Təmizliyin itirməyir,
İstəyirəm təmiz olum.
Suyu çirkab götürməyir
İstəyirəm dəniz olum,
İstəyirəm təmiz olum,
Qaytar məni dənizlərə.